**Azərbaycan Respublikası**
**Auditorlar Palatasının sədri**
**cənab Vahid Novruzova**

**Hörmətli Vahid müəllim!**

Ən xoş arzularla dərin hörmət və ehtiramımı ifadə edərək Azərbaycan Qızıl Aypara Cəmiyyətinin çoxsaylı üzvləri və şəxsən öz adımdan Sizi və kollektivinizi, Auditorlar Palatasının yaradılmasının 25-ci ildönümü münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Ümummilli lider Heydər Əliyevin imzaladığı 5 aprel 1996-cı il tarixli sərəncamı ilə fəaliyyətə başlamış Auditorlar Palatası bu gün öz sahəsində kifayət qədər uğurlara imza atmışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müasir inkişaf modeli üslubunda həyata keçirdiyi islahatlarda rəhbərlik etdiyiniz təşkilat yaxından iştirak edərək audit sisteminin inkişafına və təkmilləşdirilməsinə böyük töhfələr verir.

Şəffaflığın, hesabatlılığın təmin olunmasında, maarifləndirmə tədbirlərinin həyata keçirilməsində, antikorrupsiya mədəniyyətinin formalaşdırılmasında, sosial-iqtisadi sahədə inkişafa mane olan amillərin aradan qaldırılmasında audit xidməti böyük əhəmiyyət daşıyır. Əminəm ki, Auditorlar Palatası bundan sonra da üzərinə düşən vəzifəni layiqincə yerinə yetirəcək və bu sahənin davamlı inkişafına nail olacaqdır.

**Hörmətli Vahid müəllim!**

Sizi və kollektivinizi bir daha bu əlamətdar gün münasibətilə ürəkdən təbrik edir, dövlətçiliyimizin çiçəklənməsi, xalqımızın rifahı naminə apardığınız gərgin və son dərəcə şərəfli işinizdə tükənməz enerji və yeni-yeni uğurlar arzulayıram.

**Hörmətlə,**

**Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti, Milli Məclisin deputatı** **Novruz Aslanov**

Bakı şəhəri 5 aprel 2021-ci il